# Etibar Muradxanlının yeni kitabı

Yazıçı Etibar Elşad oğlu Yaqubovun (Muradxanlının) "Siz mühasirədəsiniz, leytenant" ("Avrasiya Press", 2009) adlı ilk kitabını oxuyanda onun yazıçılıq üslubuna, təhkiyə tərzinə görə çox sevindim. Sevindim ki, müasir dövrümüzdə də klassik roman janrının tələbləri səviyyəsində yazarlarımız var. Zəmanəmizin klassik yazarı da adlandırardım Etibar Yaqubovu. Tərcümeyi-hal xarakterli 3-4 cümləlik yazıya nəzər yetirirəm.

1968-ci il dekabrın 1-də Lerik rayonunun Kələxan kəndində doğulub. 1995-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 2002-ci ilə qədər müxtəlif mətbuat orqanlarında çalışıb. Roman, hekayə və povestləri "Ulduz", "Azərbaycan" və digər dərgilərdə çap olunub. Göründüyü kimi, nəşriyyat sahəsində fəaliyyət göstərmiş olsa da, çap olunmaq üçün əlində fürsəti-imkanı olsa da-yəni yazının-pozunun içində olsa da, çap olunmağa tələsməyib, astagəlliklə ustagəllik edib. Bu da onun sözə məsuliyyət hissindən irəli gəlib. Düşünüb ki, oxucu qabağına ləyaqətlə çıxmaq-mükəmməl yazar əhli kimi çıxmaq üçün tələskənliyə yol verməк olmaz. Bir də ki, Etibar Elşad oğlu ixtisasca filoloqdur və özü də sovet dövründən bu günə adına-çəkisinə görə xüsusilə fərqlənən Bakı Dövlət Universitetini bitirib. Doğrudan da, bu Universitetin yetirmələri özlərini yetərincə çalışdıqları, fəaliyyət göstərdikləri sahələrdə təsdiqləyə biliblər. Deməli, Etibar bir qələm əhli kimi də BDU-nun yetirməsidir və bu mənada onun yaradıcılığında klassik irsdən gələn ənənəni görmək həm təbiidir, həm də çox xoşdur. Ona görə xoşdur ki, Sovet quruluşu və senzura sistemi aradan götürüldükdən sonra istər şeir (nəzm) sahəsində, istərsə də nəsrdə kosmodernizm adı altında dırnaqarası ədəbiyyat adamları da ortaya çıxdılar. Bir ucdan çap üzü görən kimi o biri ucdan da makulaturaya veriləsi qəttəzə kitablar ayaq açdı oxucu üstünə. Bax elə bu səbəbdən də oxucuların zövqü korlandı, kitabdan da, elə qəzet-jurnallardan da oxucuların üzləri döndü. Qəzetə, kitaba oxucu marağı azaldı və indiki oxucusuzluq mənzərəsi yarandı. Başqa sözlə, bu gün oxucu yoxluğundan şikayətimizin əsas səbəbkarları da məhz makulaturalıq kağızlar – boz, sarı qəzet və kitabların oxucu beynini korlaması, oxucu könlünü bulandırması oldu. Oxucu oxuduğunda nəinki təzə bir şey tapa bildi, əksinə, çevirtatı – vurtatı cümlələrdən ibarət boş və məzmunsuz yazılardan təngə gəlib bezdi. Oxucu auditoriyası qazanmağın yeganə yolu yenidən oxucu etimadını qazanmaqla mümkündür. Bunun yolu isə yazıçı, şair məsuliyyətindən keçir, qələm məhsullarının həqiqi sənət nümunələri kimi oxucu könlünü və düşüncəsini özünə doğru çəkib sehirləməkdən keçir. Yazıçı Etibar Muradxanlı kimi yazarlarımızın ədəbiyyat aləminə gəlməsi klassik ədəbi irsimizin yenidən dirçəlişi və itmiş oxucu kütləsinin meydana çıxması istiqamətində mühüm və zəruri ədəbiyyat hadisəsi hesab olunmalıdır. Anar Mahmudoğlunun redaktorluğu, Laura Bağdasar qızı Quliyevanın (Cəbrayıllının) məsul redaktorluğu ilə çıxan kitaba yazıçı Pərviz adlı müəllif "Etibarlı müharibə" adlı yığcam və məzmunlu ön söz yazıb.

"Mən Etibarı bir dəfə görmüşəm; müharibəni isə heç görməmişəm, gördüyüm ancaq filmlərdə olub – bütün bu filmləri bir ad altında toplayası olsaq, deyərdim ki, "Apokalipsis" filmində. Onun "Siz mühasirədəsiniz, leytenant" romanı isə mənə həm müharibəni göstərdi, həm də yaşatdı. Bir əsərin qayəsi də zatən, yazarın oxucuya aşılamaq istədikləridi. Bir oxucu kimi mən o aşılanan hissləri yaşadımsa, hesab eləyirəm ki, müəllif istədiyinə yetə bilib.

Əsərdə iki məkan var - əgər belə demək mümkünsə, - Ön və Arxa cəbhə. Bu məkanda baş verənlər aşağı-yuxarı təxminən, eyni zaman kəsiyini əhatə eləyir. Və bu məkanda hərəkət eləyən adamların taleyi də görünən və görünməyən tellərlə bir-birinə bağlıdır. Müharibə bu talelərin simmetriya oxu kimi hər an arasından keçir, hər şeyi iki bölür. Vətən də, torpaq da, mülki və hərbi savaşçılar da, hisslər də zorən ikiyə bölünür. Müharibə hər yerdə amansızcasına araya girir. Üzdə baxanda sanki müharibə çox uzaqlarda gedir və deyək ki, Bakıda, Sumqayıtda baş verən hansısa kriminal olaylarla heç bir əlaqəsi yoxdu.

*(Davamı 15-ci səhifədə)*

# Etibar Muradxanlının yeni kitabı

*(Əvvəli 5-ci səhifədə)*

Bu fikirlərdə Etibar Muradxanlının kitabında gedən eyniadlı romanın oxucuya təsir gücü ifadə olunub: romanın oxucuya təsir gücü Qarabağ müharibəsini həm ona göstərə bilmək, həm də yaşada bilmək funksiyalarında özünü göstərir. Deməli, müəllif bir yazıçı kimi oxucu rəğbəti, oxucu etimadı qazanıb. Bəzən Qarabağ müharibəsinin ədəbiyyatımızda yetərincə əksini tapmadığını deyirik. Bu roman bir tərəfdən də bu sahədə tutula bilən oxucu (elə həm də ədəbi tənqidçi) iradına yazıçı cavabı, yazıçı sözüdür Qarabağ müharibəsini oxucuya sadəcə təsvir etmək yox, həm də obyekticəsinə göstərə bilmək, yaşada bilmək zorunda olan bir bədii-sənədli əsərdir "Siz mühasirədəsiniz, leytenant" romanı. Roman janrının tələblərinə uyğun olaraq hadisələr bir neçə xətt üzrə baş verir və müəllif bu epizodik qolları bir mərkəzdə birləşdirə bilir.

Müəllifin döyüşdə iştirak edib-etməməsi haqda dəqiq, rəsmi məlumatım yoxdur. Ancaq romanın mərkəzində duran leytenant Yaqubov obrazı məncə elə müəllifin özüdür. Bu mənada əsəri avtobioqrafik roman kimi də qəbul etmək olar. Həm də kitabın uğurunu təmin edən başlıca cəhətlərdən biri də elə bu amillə bağlıdır. Belə ki, döyüşün içində olmayan, müharibə həyatı yaşamayan müəllif hadisələrin təsvirində bu dərəcədə obyektivliyə, reallığa nail ola bilməzdi.




Romandan müəyyən bir parçanı diqqətdə saxlasaq, görərik ki, real döyüş səhnələrinin detallarına kimi təsviri verilmişdir: "Ağdərə istiqamətində güclü atışma səsləri eşidilirdi. Ona görə də Mayor Məmmədov taqım komandirləri ilə tez-tez əlaqə saxlayıb vəziyyətlə maraqlanır, ayıq olmağı tövsiyə edirdi. Müdafiə taborunun yerləşdiyi mövqenin qarşısından azacıq eniş, daha sonra qısa məsafəli düzənlik, öndə isə qalın meşə ilə örtülmüş yüksəklik başlayırdı. Tutacaqları mövqe adladıqları zirvənin bir qədər aşağısı, enişin isə başlanğıcı təyin edildi. Yorulub əldən düşsələr də, bir güllə belə atmadan gəlib təyin olunmuş yerə çatdıqlarına sevinən əsgərlər dərhal işə başladılar. Amma mövqe tutmağa macal tapmamış qəfil atəş açıldı. Qarşı tərəfdəki meşəlikdə möhkəmlənmiş düşmən əsgərləri müdafiə taborunun yerləşdiyi ərazini pulemyot, avtomat və qrad qurğuları ilə aramsız atəşə tutdular. Əsgərlər isə özlərini itirdiklərindən və güllə yağışından başlarını qaldıra bilmədiklərindən hara gəldi sürünür, qısılaraq bədənlərini hər daşın, hər bir kolun arxasında gizlətməyə can atırdılar. Yaralananların zarıltısı, vahimə içərisində hara gəldi sürünənlərin qışqırtısı aləmi başına götürmüşdü. Qarşı tərəfdəki meşə sanki alovlanmış şəkildə yerindən qoparaq başlarına tökülür, güllələr, mərmilərin qəlpələri vıyıltı ilə qulaqlarının dibindən uçurdu. Buna baxmayaraq, əsgərlərin bir hissəsi macal tapıb zirvənin arxa tərəfinə sürünə bildi. Qarşı tərəfdə isə yalnız yaralananlar və ölənlər qalmışdı. Təxminən on dəqiqə davam edən gülləbaran qəfil başladığı kimi qəfil də dayandı. Amma yaralı və ölənləri döyüş meydanından çıxarmaq olduqca çətin idi. Düşmən müdafiə döyüşçülərinin yerlərindən çıxıb yaralanan və ölənlərə yaxınlaşmalarını gözləyirdi. Yaralananlar isə qarşı tərəfdə zarıyır, yoldaşlarından kömək umurdular. Onlar çoxlu qan itirdikləri üçün hər an ölə bilərdilər. Tabor komandiri ilə əlaqə kəsilmişdi. Birinci taqımın komandiri isə aldığı güllə yarasından sonra bir qədər sürünmüş, ikinci güllədən isə canını qurtara bilməmiş, elə zirvəyə çathaçatdaca həlak olmuşdu. Taqım komandiri Yaqubov yaralıların xilası üçün dərhal döyüşə başlamağı əmr etdi. Zirvə tərəfə çəkildikdən sonra mövqeləri nisbətən möhkəmlənmiş müdafiə döyüşçüləri qarşıdakı meşəni aramsız olaraq atəşə tutdular. Bundan istifadə edən əsgərlərin bir qrupu ölən və yaralananları döyüş meydanından çıxarmaq üçün enişə süründü. Düşmənin yerləşdiyi mövqe təyin olunmuşdu. Amma aramsız od saçan düşmən pulemyotu hələ də susdurulmadığından xilasetmə qrupunun hərəkətini daha da çətinləşdirirdi. Leytenant Yaqubov həmin nöqtəni qranatamyotçu Aydına nişan verib, düşməni susdurmağı əmr etdi. Aydın özünə mövqe seçib düşmən pulemyotçusunu hədəfə aldı. Amma mərmi atəş nöqtəsindən bir qədər aralıda partladı. Pulemyot ani sussa da yenidən dilləndi. Və bu dəfə qranatamyot mərmisinin atıldığı istiqaməti atəşə tutdu. Aydın cəld yerini dəyişib düşmən pulemyotçusunun atəş nöqtəsini yenidən nişana götürdü və atəş açdı. Güllə hədəfə dəymişdi. Pulemyot susdu. Amma bir dəqiqə keçmədi ki, digər bir nöqtədən daha bir düşmən pulemyotçusu mövqelərimizi atəşə tutdu. Düşmənlə müdafiə taboru arasındakı məsafə də sanki azalmışdı. Düşmən qarşıdakı yüksəkliyin lap ətəyinə, meşəliyin başlanğıcına enmişdi. Amma meşə qalın olduğundan onların harada gizləndiyini görmək mümkün deyildi. Yalnız əlli, səksən metrlik məsafədən açılan atəş nöqtələrindən düşmənin yerini təyin etmək olurdu. Lakin aramsız atəş altında hədəfi düzgün nişan almaq mümkün olmadığından müdafiəçilər yalnız təxmini cavab atəşi açırdılar.

Yaralanan və ölənlərin əksəriyyəti artıq döyüş meydanından çıxarılmışdı. Amma düşmən pulemyotçusu xilas etmək missiyasını üzərlərinə götürən əsgərlərimizin hərəkətlərinə mane olur, hətta bəzilərini yaralayırdı. Qranatamyotçu Aydının düşmən pulemyotçusunu susdurmaq cəhdi baş tutmadı. O, atəş açmaq üçün gizləndiyi yerdən başını belə qaldıra bilmirdi. Leytenant Yaqubovun diqqətini gizləndiyi yerdən bir qədər irəlidə yaralılardan düşmüş qranatamyot cəlb etdi. Sürünə-sürünə qranatamyot istiqamətində hərəkət etməyə başladı. Amma düşmən pulemyotçusu komandirin irəli süründüyünü duymuşdu. Və ardıcıl olaraq həmin istiqaməti atəşə tutdu. Leytenant atəş xəttindən çıxmaq məqsədi ilə diyirlənərək özünü kolun arxasına verdi. Elə bu an sağ qolunun keyidiyini hiss etdi. O, sağ qolundan yaralandığını düşündü. Amma başını qaldıranda güllənin qoluna deyil, arxasında gizləndiyi kolun budağına dəydiyini gördü. Güllə leytenant Yaqubovun tutduğu ağacı yapışdığı yerin bircə santimetr yuxarı hissəsindən qoparıb atmışdı. Daha bir sıçrayışla özünü qranatamyota yetirdi. Cəld də geri, əvvəlki yerinə süründü. Özünə mövqe seçib qranatamyotu atəşə hazır vəziyyətə gətirdi. Və gizləndiyi yerdən ani qalxaraq pulemyotun atəş nöqtəsini hədəfə aldı. Atəş açıldı. Pulemyotun gurladığı yerdə güclü partlayış baş verdi.

Güllə hədəfə dəymişdi. Pulemyot susdu. Və həmin yerdən qarışıq səslər eşidilməyə başladı. Kimsə "Volodya, pomoqi!" – deyə var səsi ilə bağırırdı. Bir an keçmədi ki, həmin yerdə daha bir partlayış baş verdi. Və qarşı tərəf tamamilə tüstü, dumana büründü. Pulemyotun susduğundan istifadə edən Aydın həmin nöqtəyə daha bir qranatamyot mərmisi endirməyə macal tapmışdı..." (s.85-88). Əsər nə qədər yüksək dərəcədə obyektivliyi əks etdirirsə, tarixilik baxımından, o dərəcədə də yüksək sənətkarlıqla yazılmış olduğundan, bədiilik baxımdan yüksək əhəmiyyətə malikdir. Bu məqamda qeyd etmək istərdim ki, bir çox nəsr əsərlərində bədiiliyin çatışmaması da oxucu zövqünü çox korlayır. Bu baxımdan Etibar Muradxanlının yazı üslubundakı bədiilik də onun yazıçı ustalığından xəbər verir. Kifayət qədər bədii detal nümunələrinin, burada özünə yer alması da romanın oxunaqlılığını şərtləndirir. İnanıram ki, ədəbiyyatımızda Etibar Muradxanlı ismində bir yazıçı oxucuların könlündə və düşüncəsində özünə əbədi ədəbi vəsiqəni artıq təmin edibdir.

***Şakir Albalıyev,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosen***